**Azərbaycan Respublikasının Mədəniyyət və Turizm nazirinin "10" iyun 2008-ci il tarixli 311 № li əmri ilə təsdiq edilmişdir.**

## Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində çalışan (işləyən) dövlət qulluqçularının etik davranış Qaydaları

### I. Ümumi müddəalar

1. Bu Qaydalar "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21.2.8-ci maddəsinə uyğun olaraq və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 614 nömrəli Fərmanının 2-ci bəndinə əsasən hazırlanmış və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində (bundan sonra - Nazirlik) çalışan dövlət qulluqçuları üçün etik davranış qaydalarını və onlara əməl edilməsi ilə bağlı təminatları müəyyən edir.

2. Dövlət qulluqçuları qanunun aliliyini, xüsusilə də nazirliyin fəaliyyəti ilə bağlı qüvvədə olan digər normativ hüquqi aktların tələblərinə riayət edilməsini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununa və bu qaydalara əməl etməyə borcludurlar.

3. Bu Qaydaların tətbiq edilməsinin əsas məqsədi Nazirliyin nüfuzunun artırılması, Nazirliyə və dövlət qulluqçularına ictimai etimadın yüksəldilməsi, onların əmək fəaliyyətində səmərəliliyin və şəffaflığın təmin edilməsi, Nazirlikdə korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması, Nazirlikdə çalışan dövlət qulluqçuları (bundan sonra – dövlət qulluqçusu) tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi, Nazirliyin və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsiri imkanlarının genişləndirilməsi olmuşdur.

### II. Nazirlikdə çalışan dövlət qulluqçularının etik davranış qaydaları

4. Dövlət qulluqçusu şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə əmək və icra intizamına ciddi riayət edərək vəzifə funksiyalarını vicdanla, qərəzsiz və keyfiyyətlə yerinə yetirməyə və iş vaxtından səmərəli istifadə etməyə borcludur.

Nazirlikdə çalışan dövlət qulluqçuları bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

5. Dövlət qulluqçusu özünə qarşı tələbkar olmalı, öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində, peşəkar səviyyədə yerinə yetirməli, Nazirliyə daxil olan müraciətlərə və sorğulara qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətdə baxmalı, məsələləri qanunvericiliyə uyğun qaydada araşdırmalıdır.

Dövlət qulluqçusu öz etik davranışı və peşəkar fəaliyyəti ilə Nazirliyə və dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir.

Dövlət qulluqçusu öz hərəkətləri və qəbul etdiyi qərarları ilə insanların haqlı tənqidinə şərait yaratmamalı, haqlı tənqiddən lazımi nəticə çıxarıb öz fəaliyyətini təkmilləşdirməlidir.

6. Dövlət qulluqçusu xidməti vəzifəsinə aid olmadığı halda, Nazirliyin və digər dövlət orqanlarının, həmçinin Nazirliyin və həmin orqanların rəhbərliyinin fəaliyyəti haqqında (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi mülahizələr söyləməkdən, çıxışlar etməkdən və onların fəaliyyətinə ictimai qiymət verməkdən çəkinməlidir. Bu qayda dövlət qulluqçusunun elmi pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil olunmur.

Dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə Nazirliyin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

Dövlət qulluqçusu Nazirlikdə dövlət orqanlarının fəaliyyəti və öz vəzifə səlahiyyətlərinin icrası ilə bağlı müzakirələr zamanı etik davranış qaydalarına əməl etməli, dövlət qulluqçusunun nüfuzuna xələl gətirməməlidir.

Dövlət qulluqçusu qanunvericilikdə dövlət qulluğu ilə bağlı nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməlidir.

7. Dövlət qulluqçusu fəaliyyəti dövründə şəxsin, cəmiyyətin və dövlətin qarşısında dövlət qulluqçusu andına sadiq olmalı və vəzifə funksiyalarını həyata keçirərkən bu anda uyğun olan davranış nümayiş etdirməlidir.

Dövlət qulluqçusu Azərbaycan Respublikasının, Nazirliyin nüfuzunu möhkəmləndirməli, dövlət orqanlarının və dövlət qulluqçularının səmərəli fəaliyyətinə mane olan hərəkətlərin qarşısını almalı, öz adını və şərəfini uca tutmalıdır.

Dövlət qulluqçusu işə münasibətində şəxsi keyfiyyətləri, davranışı ilə kollektivdə xoş və qarşılıqlı işgüzar münasibətlərin qurulmasına köməklik göstərməlidir.

Dövlət qulluqçusu etik davranış qaydalarını pozduqda onun nəticələrini aradan qaldırmağa çalışmalı, ictimai etimadın bərpası üçün tədbirlər görməlidir.

Dövlət qulluqçusu Nazirliyin və Nazirliyin vəzifəli şəxslərinin fəaliyyəti barədə kütləvi informasiya vasitələrinə qanunla müəyyən edilmiş hallarda və qaydada doğru (dürüst) məlumatlar verilməsinə köməklik göstərməlidir.

8. Dövlət qulluqçusunun fəaliyyəti insanların irqindən, milliyyətindən dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına, qanuni maraqlarının təmin olunmasına, qorunmasına xidmət etməlidir.

Dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

Dövlət qulluqçusu təqdim olunmuş müraciətlərin baxılmasına obyektiv və operativ yanaşmalı, süründürməçiliyə yol verməməli, hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı, Mədəniyyət və Turizm Nazirliyinin idarə, şöbə və sektorlarının fəaliyyətinə mənfi təsir göstərən və ya mənfi təsir göstərə biləcək maraqların qruplaşmasına (lobbiləşməsinə) yol verməməlidir.

9. Dövlət qulluqçusu həm tabe olduğu, həm də tabeliyində olan bütün şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli, səbirli olmalı, digər dövlət qulluqçularına qarşı əsassız ittihamlara, kobudluq və sərtlik hallarına yol verməməlidir.

Dövlət qulluqçusu xidmət zamanı işgüzar (rəsmi) üslubda geyinməyə üstünlük verməlidir.

10. Rəhbər dövlət qulluqçusu tabeliyində olan dövlət qulluqçularının vəzifə səlahiyyətlərini dəqiq və dürüst müəyyən etməli, onlara qanunsuz, etik normalara sığmayan, icrası mümkün olmayan tapşırıqlar verməməli və belə tapşırıqların yerinə yetirilməsini tələb etməməlidir.

Dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun olan və səlahiyyətləri daxilində verdiyi əmr, sərəncam və tapşırıqları yerinə yetirməyə borcludur.

Rəhbər dövlət qulluqçularının verdiyi əmr, sərəncam və tapşırıqlar qanuna və ya digər normativ hüquqi aktlara zidd olduqda, dövlət qulluqçusu bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməlidir. Əgər, rəhbər dövlət qulluqçusu qanunsuz verdiyi sərəncam və tapşırıqların icrasını tələb etməkdə davam edərsə və əgər, dövlət qulluqçusu onların qanuna, yaxud digər normativ hüquqi aktlara zidd olduğuna inanırsa, belə halda həmin əmri, sərəncamı və tapşırıqları yerinə yetirməkdən imtina edə bilər.

Qanuni göstərişlərin yerinə yetirilməməsi intizam məsuliyyətinə səbəb olur.

11. Dövlət qulluqçusu mədəniyyət, tarix və mədəniyyət abidələrinin qorunması, kinematoqrafiya və turizm sahələrində qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) və ya xüsusi icazə, habelə hüquq müəyyənedici sənədlər verilməsi ilə əlaqədar müraciət edən hüquqi və fiziki şəxslərin müraciətinə baxarkən və ya qərar qəbul edərkən obyektiv olmalı, heç bir təzyiq və təsirə yol verməməli, həmin xidmətə (xidmətlərə) görə hər hansı (dövlət rüsumu istisna olmaqla) əlavə haqq tələb etməməlidir.

Qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada tarix və mədəniyyət abidələrinin mühafizəsi qaydalarının pozulmasına görə hüquqi və fiziki şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görülməsi zamanı obyektiv olmalı, heç bir təzyiq və təsirə yol verməməlidir.

12. Dövlət qulluqçusuna bu və ya digər xidmətə görə, qanunsuz yolla maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda dövlət qulluqçusu onlardan imtina etməli, bu mümkün olmadıqda isə (ondan asılı olmayan səbəblərdən verilərsə) o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və qeyri maddi nemətlər, imtiyazlar və güzəştlər müvafiq akt üzrə Nazirliyə təhvil verilməlidir.

13. Dövlət qulluqçusu xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən halların icrası müqabilində mükafat qismində verilən hədiyyələri və qiymətli əşyaları özü və digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri “Korrupsiyaya qarşı mübarizə haqqında” qanunda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

Dövlət qulluqçusu hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

14. Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Dövlət qulluqçusunun xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yaranarsa, o, xidməti vəzifəsinin obyektiv icrasına üstünlük verməyə borcludur.

Dövlət qulluqçusu başqa işə keçmə ilə əlaqədar təklifin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, ondan imtina etməli, bu mümkün olmadıqda onun qarşısının alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlər görməlidir.

Dövlət qulluqçusu vəzifə səlahiyyətlərini həyata keçirərkən dövlət qulluğu, nazirliyin fəaliyyəti ilə bağlı qüvvədə olan qanunlarla, normativ hüquqi aktlarla, etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqların toqquşmasının qarşısının alınmasına dair normativ

hüquqi və normativ xarakterli aktlarla tanış olmağa və onların tələblərinə ciddi əməl etməyə borcludur.

15. Dövlət qulluqçusu istifadəsində olan dövlət əmlakından, maliyyə vəsaitlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından qənaətlə və səmərəli istifadə etməlidir və xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün onlardan istifadə edə bilməz.

Dövlət qulluqçusu kadrların seçilməsi, dövlət qulluğunun icrası zaman və öz vəzifə səlahiyyətlərini həyata keçirərkən dövlət mənafeyi ilə bağlı maraqları şəxsi maraqları üçün istifadə edə bilməz.

16. Dövlət qulluqçusu Nazirliyin sərəncamında olan məlumatların qanunvericilikdə müəyyən olunmuş qaydada əldə olunması və yayılması mümkünlüyünü təmin etməlidir.

Dövlət qulluqçusu Nazirlik tərəfindən müəyyən olunmuş xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməlidir.

17. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmamışdırsa, dövlət qulluqçusu ictimai və ya siyasi birliklərə üzv olmaq hüququna malikdir.

Dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır. Dövlət qulluqçusu qulluq mövqeyindən istifadə edərək digər dövlət qulluqçularını ictimai və ya siyasi birliklərin və dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.

Dövlət qulluqçusuna Nazirlikdə ictimai və siyasi birliklərin (həmkarlar ittifaqı istisna olmaqla), dini təşkilatların struktur bölmələrini yaratmaq, yaxud həmin orqanda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək qadağandır.

Dövlət qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədin, siyasi partiyaların, bloklarının xeyrinə istifadə etmək qadağandır.

## III. Nazirlikdə davranış qadalarının həyata keçirilməsinin təmin olunması

18. Nazirlikdə çalışan dövlət qulluqçusunun davranışının, etik davranış qaydalarına uyğunluğu onun özü, birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir. Dövlət qulluqçusunun birbaşa və ya yuxarı rəhbəri bu Qaydalarda nəzərdə tutulmuş tədbirləri görür.

Etik davranış qaydalarına əməl olunmasına nəzarəti xidməti qaydada nazir həyata keçirir.

Nazirlikdə etik davranış qaydalarına əməl olunmasına nəzarəti Aparatın rəhbəri və Aparat rəhbərinin müavini-kadrlar şöbəsinin müdiri həyata keçirir.

19. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Aşağıdakı hallarda nazirin göstərişi əsasında dövlət qulluqçusu barəsində intizam icraatına başlana bilər:

- “Dövlət qulluqçularının etik davranış qaydaları” haqqında Azərbaycan Respublikası Qanununun və bu Qaydaların müddəalarının dövlət qulluqçusu tərəfindən pozulması barədə hüquqi və fiziki şəxslər tərəfindən şikayət və digər məlumatların verilməsi;
- kütləvi informasiya vasitələrində dövlət qulluqçusu tərəfindən “Dövlət qulluqçularının etik davranış qaydaları” haqqında Azərbaycan Respublikası Qanununun və bu Qaydaların müddəalarının pozulması və maraqların toqquşmasına yol verilməsi barədə məlumatın dərc edilməsi.

Aparılmış intizam icraatının nəticələri Nazirliyin rəhbərinə təqdim edilir. “Dövlət qulluqçularının etik davranış qaydaları” haqqında Azərbaycan Respublikası Qanununun və bu Qaydaların müddəalarını pozmuş dövlət qulluqçusu barədə Nazirlik tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada intizam tənbehi tədbiri tətbiq edilə bilər.

İntizam icraatı zamanı dövlət qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə müvafiq inzibati orqanlara məlumat verilir.